2017-ci ildə YAP Səbail Rayonu
"Bibiheybətneft" NQÇİ-nin ilk ərazi təşkilatının gördüyü işlərə dair

# Hesabatı

Hörmətli Həmfikirlər, biz bilirik ki, 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində YAP yaradılmışdır.

Bizim "Bibiheybətneft" NQÇİ-də ilk ərazi təşkilatı isə 1993-cü ilin yanvar ayında yaradılmış və o vaxtdan bu günə kimi fəaliyyətdədir. Həmin il partiyamızın cəmi 10 nəfər üzvü var idi.

2017-ci ilə YAP "Bibiheybətneft" NQÇİ-nin ərazi ilk təşkilatının uçotunda 195 nəfər partiya üzvü vardır. Bunların tərkibində qadınlar 51 nəfər, gənclər isə 44 nəfər təşkil edir.

2017-ci ildə partiya sıralarına 5 nəfər qəbul edilmiş, onlardan 5-də qadın olmaqla, 3 nəfəri gənclər təşkil edir. Üzvlərimizin 2 nəfəri Qarabağ müharibəsi əlili, 53 nəfər təqaüdçü, 23 nəfəri isə işsizdir. Hal-hazırda da partiya sıralarına qəbul olmaq üçün 5 nəfər ərizə ilə müraciət etmişlər.

2017-ci il ərzində ilk təşkilat tərəfindən İş Planına uyğun olaraq müəyyən işlər ğörülmüşdür .Bunlardan ən önəmlisi Ümummilli liderimiz Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə bağlı keçirilən tədbirlər olmuşdur. İl ərzində keçirilən bütün tədbirlər arasında Heydər Əliyev irsinin öyrənilməsinə dair elmi-praktiki konfrans, dəyirmi masalar, sərgilərin keçirilməsi, habelə 2017-ci il 11 dekabr tarixində Ulu Öndərin anım günü münasibəti ilə geniş partiya iclasının keçirilməsi və 12 dekabr tarixində Fəxri Xiyabanda məzarına ziyarətin təşkil edilməsi kimi mərasimlər xüsusi yer tutur.

Bundan əlavə Yeni Azərbaycan Partiyasının və YAP Səbail Rayon Təşkilatının yaranması gününün yüksək səviyyədə qeyd edilməsi ilk ərazi təşkilatının işində önəmli yer tutmuşdur.

Qarşıda duran vacib vəzifələrdən biri də 2017-ci il üçün YAP Səbail Rayon Təşkilatının illik İş Planı əsasında hazırlanmış ilk ərazi təşkilatının Tədbirlər Planının yerinə yetirilməsi idi. İl ərzində ilk təşkilatın 4 ümumi yığıncağı keçirilmiş, müzakirə olunmuş əsas məsələlər arasında ilk ərazi təşkilatlarının siyasi fəallığının artırılması, YAP üzvlərinin siyasi məsuliyyətinin yüksəldilməsi ilə əlaqədar tədbirlərin görülməsi, YAP sıralarına qəbul işinin davam etdirilməsi, partiya sıralarına yeni qəbul olunmaq istəyənlərin əqidə saflığına diqqətin artırılması, partiya üzvlük haqlarının vaxtında toplanmasının təmin edilməsi, təşkilatı məsələlərin müzakirələrinin təşkili, partiya üzvlərinin nizam-intizam məsələlərinin daimi nəzarətdə saxlanması, habelə rəsmi xalq bayramlarının yüksək səviyyədə təşkili və keçirilməsi kimi məsələləri göstərmək olar.

Qeyd etmək olar ki, bu sahədə təşkilat üzvləri bu vəzifənin öhdəsindən layiqincə gəlmişlər. İş planında nəzərdə tutulmuş bütün tədbirlər vaxtında icra olunmuşdúr. YAP Səbail Rayon Təşkilatının bütün tapşırıqları yüksək səviyyədə icra olunmuşdur.

Hesabat ilində həmçinin partiya üzvlük haqlarının vaxtlı-vaxtında yığılaraq müvafiq köçürülmələr həyata keçirilib. Partiya üzvlərindən biri də partiya intizamının pozulmasına yol verməmişdir.

Prezidentimizin neftçilərə hər zaman qayğısını biz hiss edirik. Bildiyimiz kimi 1994-cü il sentyabrın 20-də yeni Əsrin Kontraktı imzalanmış və həmin gün 20 sentyabr Neftçilər günü kimi qeyd olunur. Bizim NQÇİ-də də bu bayram hər il təntənəli sürətdə qeyd edilir.

Bütün təşkilatlarda olduğu kimi çətinliklərimiz də var. Belə ki, işsizlərimizin sayı 23 nəfərə çatır. Bu da üzvlərdə narazılığa səbəb olur, və üzvlük haqlarının toplanmasına da zərər vurur.

Çıxışımın sonunda bir daha qeyd etmək istəyirəm ki, bundan sonra da ərazi ilk təşkilatımız ümummilli liderimiz, Müstəqil Azərbaycan dövlətinin yaradıcısı və memarı mərhum H.Əliyevin layiqli davamçısı prezident İiham Əliyevin xarici və daxili siyasətini dəstəkləyəcək və stabilliyin qorunub saxlanmasında ona daim yardımçı olacaqdır.

Diqqətinizə görə minnətdaram!